http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 - cü ildən çıxır. № 22 (1597) 31 dekabr 2014 - cü il Qiyməti 40 qəpik

# İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbriki

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına müraciət ünvanlayıb. Müraciətdə deyilir:***

***«-Hörmətli xanımlar və cənablar!***

***Əziz həmvətənlər!***



Bir neçə dəqiqədən sonra 2013-cü il başlayır. 2012-ci il isə ölkəmiz üçün çox uğurlu il olmuşdur. 2012-ci ildə Azərbaycanın uğurlu, dinamik inkişafı təmin edilmişdir. Ölkə qarşısında duran bütün vəzifələr müvəffəqiyyətlə icra edilmişdir.

2012-ci ildə Azərbaycan iqtisadiyyatı uğurla inkişaf etmişdir. İqtisadiyyatda yenə də inkişaf özünü göstərir. Ən sevindirici hal ondan ibarətdir ki, qeyri-neft iqtisadiyyatımız təxminən 10 faiz artmışdır. Bu, onu göstərir ki, bizim iqtisadi islahatlarla bağlı siyasətimiz çox uğurludur, çox təsirlidir.

İqtisadiyyatımız çoxşaxəli iqtisadiyyatdır. Əminəm ki, gələcək illərdə ölkəmizin dayanıqlı iqtisadi inkişafı üçün əlavə imkanlar yaranacaqdır. Bütün iqtisadi göstəricilər çox yüksək səviyyədədir. Yoxsulluq 6 faizə düşmüşdür. İşsizlik 5,2 faizdir. Bu il 100 mindən artıq yeni iş yeri açılmışdır. Son doqquz il ərzində bir milyon 100 mindən çox iş yeri açılmışdır. İş yerlərinin açılması bilavasitə işsizliyin aradan qaldırılmasına xidmət göstərmişdir...

...Bu gün biz, eyni zamanda, Dünya Azərbaycanlılarının Həmrəylik Gününü qeyd edirik. Bu fürsətdən istifadə edərək dünyada yaşayan bütün azərbaycanlıları səmimi qəlbdən salamlayıram, onları təbrik edirəm. Onlara bildirmək istəyirəm, fəxr edə bilərlər ki, bu gün dünyada müstəqil Azərbaycan dövləti vardır. O Azərbaycan dövləti ki, bu gün dünyanın bir nömrəli beynəlxalq qurumunun - BMT Təhlükəsizlik Şurasının üzvüdür. O dövlətdir ki, hətta böhranlı illərdə öz iqtisadi inkişafını davam etdirmiş, öz daxili resursları üzərində güclü iqtisadi zəmin yaratmış və gələcəyə böyük ümidlərlə, böyük nikbinliklə baxır.

Mən dünyada yaşayan bütün azərbaycanlıları bu gözəl bayramlar - həm Dünya Azərbaycanlılarının Həmrəylik Günü, həm Yeni il bayramı münasibətilə bir daha ürəkdən təbrik edirəm, hər bir Azərbaycan ailəsinə cansağlığı, xoşbəxtlik arzulayıram.

Bayramınız mübarək olsun!»

## BU SAYIMIZDA





TƏHSİL İSLAHATLARI VƏ ONUN HƏYATA KEÇİRİLMƏSİNDƏ KOLLEKTİV QARŞISINDA DURAN VƏZİFƏLƏR MÜZAKİRƏ OLUNDU 2

İran nümayəndə heyəti ATU-da qonaq oldu 3



QIŞ İMTAHAN SESSİYASINA START VERİLDİ 5



"İlin ən yaxşı tələbə elmi tədqiqatçısı adı uğrunda" 4

Stomatoloji Klinikada eCligner metoduna aid konfrans keçirilib 6


**Azərbaycan Tibb Universitetinin rektorluğu, Həmkarlar İttifaqı Komitəsi Universitetin bütün əməkdaşlarını, o cümlədən professor-müəllim heyətini və tələbələrini Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edirlər!**

**Böyük Elmi Şuranın dekabrın 29-da keçirilən növbəti yığıncağını açan universitetin rektoru, Milli Məclisin deputatı akademik Əhliman Əmiraslanov əvvəlcə farmakologiya kafedrasının müdiri, professor Musa Qəniyevi 60 illik yubileyi münasibətilə təbrik etdi. Universitetin "Fəxri Fərmanı" yubilyara təqdim olundu. Professor Musa Qəniyev ona göstərilən diqqət və qayğıya görə universitet rəhbərliyinə, Böyük Elmi Şuranın üzvlərinə və şəxsən akademik Əhliman Əmiraslanova öz təşəkkürünü bildirərək belə bir kollektivdə çalışmaqdan qürur duyduğunu dedi.**

# TƏHSİL İSLAHATLARI VƏ ONUN HƏYATA KEÇİRİLMƏSİNDƏ KOLLEKTİV QARŞISINDA DURAN VƏZİFƏLƏR MÜZAKİRƏ OLUNDU







Bundan sonra iclasın gündəliyi diqqətə çatdırıldı. Tədris Metodik və İnnovasiya şöbəsinin müdiri, professor Akif Qurbanovun "Azərbaycan Tibb Universitetində təhsil islahatlari və onun həyata keçirilməsində kollektiv qarşısında duran vəzifələri" barədə hesabatı dinlənildi.

A.Qurbanov 2012-2014 –cü illəri əhatə edən hesabat məruzəsində bildirdi ki, 1999-cu ildə Avropanın 29 ölkəsi "Boloniya bəyannaməsi" imzalamaqla Avropada vahid ali təhsil məkanının formalaşdırılması üçün fəaliyyət prinsiplərini müəyyən etmişdir. Azərbaycan bu "Bəyannamə"yə 2005-ci ildə qoşulmuşdur. 2006-cı ildə ATU-nun rektoru, akademik Ə.Əmiraslanovun əmri və Böyük Elmi Şuranın qərarı ilə tibbi-biologiya fakültəsində tədris kredit sistemi üzrə təşkil edilmişdir.

Avropa Kredit Sisteminə keçməsi ilə əlaqədar Azərbaycan Tibb Universitetində artıq 10 ilə yaxındır ki, təhsil islahatlarının başlandığını və bu yönümdə qısa müddət ərzində xeyli işlər görüldüyünü söyləyən şöbə müdiri aparılan islahatların tədrisin təşkilindən tutmuş, qiymətləndirmə meyarlarına qədər bütün tədris prosesini əhatə etdiyini vurğuladı.

Qeyd etdi ki, tədris prosesinin metodik təminatını daha da təkmilləşdirmək, təhsil islahatlarının həyata keçirilməsini intensivləşdirmək məqsədilə Azərbaycan Tibb Universitetinin rektoru akademik Ə.Əmiraslanovun müvafiq əmri ilə tədris-metodik şöbənin adı dəyişdirilərək "Tədris-metodik və innovasiya şöbəsi" adlandırılmışdır. Son üç ildə bu şöbə tibb təhsilində islahatlar istiqamətində bir çox işlər görmüş və müəyyən tədbirlər həyata keçirmişdir.

Tibb Universitetində kredit sistemi ilə tədrisə yenicə başlamış kafedraların əməkdaşlarına metodik kömək məqsədilə 26 sentyabr 2013-cü ildə keçirilən treninqdə müəllimlərə Avropa Kredit Transfer sistemi üzrə tədrisin prinsipləri, təşkili haqqında məlumatlar çatdırılmışdır.

Tədris-metodik və innovasiya şöbəsi yeni yaradıldığı dövrdə Tibb Universitetində tələbələrin biliyi artıq test üsulu ilə qiymətləndirilməyə başlanılsa da, tərtib edilən testlərin keyfiyyətinin qənaətbəxş olmaması səbəbindən çoxsaylı apellyasiyalar müşahidə edilirdi. Elə buna görə də İnnovasiya şöbəsi ilk olaraq bu çətinliyin həlli üçün fəaliyyətə başlamışdır. Tezliklə imtahan testlərinin tərtibinə metodik kömək məqsədilə "Test tapşırıqlarına olan tələblər, onların tərtibi qaydaları və ekspertizası" adlı metodik tövsiyələr universitet müəllimlərinin istifadəsinə verildi (2012-ci il). Bundan əlavə, bütün kafedraların müəllimlərilə 2012-ci il 3-5 oktyabr tarixlərində test tapşırıqlarının tərtibinə dair təlimlər keçirilmişdir. Bu təlimlərdə test tapşırıqlarının müasir təhsil sistemində rolu, onların tərtib olunma qaydaları, ekspertizası və test üsulu ilə imtahanların aparılma qaydaları haqqında məlumatlar verilmişdir.

Elə həmin ildən başlayaraq imtahan testlərinin ekspertizası və qəbulunda bir sıra dəyişikliklər aparılmışdır. Belə ki, kafedralarda tərtib edilmiş testlər əvvəlcə İnnovasiya şöbəsində ilkin ekspertizadan keçirildikdən sonra Virtual Test Mərkəzində fənn müəllim-ekspertləri tərəfindən son ekspertizadan keçirilir və ancaq bundan sonra imtahanlarda istifadə edilir. İmtahan testlərinin ekspertizası və qəbulunda bu cür dəyişikliklər test tapşırıqlarının obyektivli-

yasiyaların sayı əhəmiyyətli şəkildə azalmışdır. Test tapşırıqlarının təkmilləşdirilməsi istiqamətində oxşar tədbirlərin gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

Son illər ərzində Universitetdə təhsil islahatları istiqamətində məqsədyönlü fəaliyyətin davam etdirildiyini bildirən natiq qeyd etdi ki, Türkiyə Ege Universitetinin Tibb təhsili kafedrasının müdiri, professor Xalil İbrahim Durak Səhiyyə Nazirliyi Səhiyyə Sektorunda İslahatlar layihəsinin dəstəyi ilə 2012-ci il 13-18 sentyabr tarixində Tibb Universiteti müəllimlərinin bir qrupu ilə "Tibb təhsilində müasir tendensiyalar" və 2013-cü il 8-12 aprel tarixində "Klinik tədris və bacarıqların qiymətləndirilməsi" adlı təlim kursu keçmişdir. Hər iki kursun sonunda dinləyicilərə sertifikatlar verilmişdir.

A.Qurbanov peşə bacarıqlarına malik olmadan yüksək ixtisaslı həkim kadrları hazırlamağın qeyri mümkünlüyünü diqqətə çatdıraraq bildirdi ki, həkimlik fəaliyyəti nəzəri biliklərin təcrübi, yaxud klinik bacarıqlar (peşə vərdişləri) ilə birgə tədrisini və qiymətləndirilməsini tələb edir. Bu bacarıqların əksəriyyəti tələbələrdə peşə vərdişlərin formalaşması ilə müşayiət olunur, yəni tələbə müəyyən bir bacarığa malik olduqdan sonra onu peşə vərdişi səviyyəsinə qədər təkmilləşdirməlidir. Beləliklə, tələbələr təhsil müddətində

Bunu nəzərə alaraq Tibb Universitetində gələcək həkim kadrların peşəkarlığını artırmaq məqsədilə bacarıqların tədrisinə başlanmışdır. Hazırda təcrübi və klinik bacarıqların tədrisi və qiymətləndirilməsi diqqət mərkəzində qalmaqdadır. Universitet rektorunun müvafiq əmri ilə hər bir ixtisas istiqamətində müvafiq fənlərdən lazım olan minimum bacarıqların tədrisini və qiymətləndirilməsini həyata keçirmək üçün əmr imzalanmışdır. Əmrə müvafiq olaraq müəyyən fənlərdən 10 bacarıq siyahısı hazırlanmışdır ki, bu bacarıqlar gündəlik dərslərdə tələbələrə öyrədilir və hər bir bacarığa 1 bal verilməklə qiymətləndirilir, yəni bacarıqlar öyrədilən fənlərdən cari qiymətləndirmə üçün nəzərdə tutulmuş 30 balın 10 balı məhz bacarıqların qiymətləndirilməsinə ayrılmışdır.

Şöbənin əməkdaşlarının Baloniya prosesi üzrə tədrisin keyfiyyətinin yüksəldilməsinə dair bəzi beynəlxalq layihələrdə də iştirak etdiyini bildirən A.Qurbanov layihələrin əsas məqsədlərini diqqətə çatdırmışdır.

Azərbaycan Tibb Universiteti mərkəzi ofisi Londonda yerləşən QS World University Rankings Qlobal reytinq sistemində qeydiyyatdan keçmişdir. Bu prosesdə İnnovasiya şöbəsi Beynlxalq əlaqələr şöbəsi ilə birlıkdə iştirak etmişdir. Onu da qeyd etmək lazımdır ki, dünyada ilk 500 yerdə duran universitetlər sırasında cəmi bir neçə tibb universiteti var.

Təhsil islahatları sahəsində qarşıda duran vəzifələrdən söhbət açan şöbə müdiri bildirdi ki, yekun qiymətləndirmələrin aparılması üçün tərtib edilən testlərin keyfiyyətinin yüksəldilməsi, test bankının yaradılması zəruridir. Eyni zamanda bacarıqların tədrisinə və tələbə məmnunluğuna diqqət artırılmalıdır. Hər bir

Müalicə işi ixtisası üzrə yekun Dövlət attestasiyası üçün Bacarıq imtahanlarına (OSKİ) hazırlığın yüksək səviyyədə aparılmasına, universitetin veb saytının təkmilləşdirilməsinə də toxunan məruzəçi diqqətə çatdırdı ki, Tibb Universitetində həllini gözləyən məsələlərdən biri də dərslik və dərs vəsaitləri ilə əlaqədardır. Son illər bu sahədə mühüm işlər görülsə də, bəzi fənlərdən dərsliklərin keyfiyyətini hələ də tam qənaətbəxş hesab etmək olmaz.

Universitetin tədris işləri üzrə prorektoru Sabir Əliyev, tədris hissə müdiri Nəsimi Qasımov, tibbi profilaktika və tibbi biologiya fakültəsinin dekanı Aydın Məmmədov, beynəlxalq əlaqələr şöbəsinin müdiri Rəhimə Qabulova, kafedra müdirləri Arif Əfəndiyev, Ədalət Həsənov və Çingiz Rəhimov hesabatı qənaətbəxş qiymətləndirərək tədris islahatları ilə bağlı fikirlərini və təkliflərini şura üzvləri ilə bölüşdülər.

Ə.Əmiraslanov müzakirələrə yekun vuraraq məruzə və çıxışlarda səslənən fikirlərə münasibətini açıqladı: "Bizim üçün son dərəcə mühüm əhəmiyyət kəsb edən bir məsələni müzakirə edirik. Neçə illərdir ki, tədris kredit sistemi ilə aparılır, ancaq bu sistemi Avropada tətbiq edildiyi kimi Azərbaycana köçürmək olmaz. Müəyyən xüsusiyyətlər nəzərə alınmalı, dəyişikliklər aparılmalıdır. Tədris elə bir sahədir ki, burada nə tələskənliyə, nə də gecikməyə yol verilməməlidir. Əgər yadınızdadırsa, başqalarının təcrübəsini öyrənərək bu sistemə ən gec keçənlərdən biri biz olduq".

Xüsusilə, tələbəyə semestr boyu verilən 50 balla bağlı narazılıqların olduğunu vurğulayan rektor bəzi kafedra müdirlərinə kəskin iradlarını bildirdi. Köhnə qaydada çoxsəhifəli referatlar yazdırmaqla tədrisin keyfiyyətini yüksəltməyin müm-

# İran nümayəndə heyəti ATU-da qonaq oldu

**Dekabrın 23- də İran İslam Respublikasının bir qrup nümayəndə heyəti- İran XİN-in Xaricdə Yaşayan İranlılarla İş üzrə İdarəsinin rəisi Seyid Kazım Səccadi, İran Səhiyyə Nazirliyinin Dəyərləndirmə idarəsinin müdiri doktor Əkbəri, İranın ölkəmizdəki səfiri Möhsün Pak Ayin və İranın Azərbaycandakı konsulluğunun rəhbəri Nasr Vətənlə birlikdə Azərbaycan Tibb Universitetində olub.**



Qonaqları səmimiyyətlə qarşılayan universitetin rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov onları universitetimizdə görməkdən məmnun olduğunu bildirdi. Nümayəndə heyətini universitetimiz haqqında məlumatlandıran rektor rəhbərlik etdiyi bu təhsil müəssisəsinin maddi-texniki bazası, eləcə də hazırkı təhsilin səviyyəsi, tədrisin strukturu və potensial imkanları barədə ətraflı məlumat verdi. O, diqqətə çatdırdı ki, artıq 85 yaşına gəlib çatan bu tədris ocağı ölkədə yeganə tibb təhsili verən ali məktəbdir. Ötən müddət ərzində 70 mindən çox həkim və əczaçı kadrlar hazırlayan bu tədris müəssisəsinin beynəlxalq əlaqələri genişlənib, dünyanın nüfuzlu universitetləri ilə sıx təmaslar qurub, artıq neçə ildir burada təhsil Avropa baloniya sistemi ilə aparılır.

Akademik qeyd etdi ki, Azərbaycan müstəqillik dövrünü qazandıqdan sonra ölkə rəhbərliyinin diqqət və qayğısı sayəsində müasir standartlara tam cavab verə bilən dörd universitet klinikası yaradılıb. Əvvəllər şəhərin müxtəlif xəstəxanalarında yerləşmiş kafedraların bir bazada toplanmasına, eləcə də klinik fənlərin daha müasir şəraitdə tədris olunmasına şərait yaranmışdır.

ATU-da təhsil alan əcnəbi tələbələrə gəlincə, rektor bildirdi ki, universitetin 1000-dən çox xarici tələbəsi var. Onlar arasında İran, Türkiyə və İraqdan gələn tələbələr üstünlük təşkil edir. Son vaxtlar xarici tələbələrin səviyyəsinin xeyli yüksəldiyini və bu yüksəlişin iranlı tələbələrə də aid olduğunu deyən rektor: "Lakin bəziləri isə bura dərs oxumaq üçün yox, ticarət üçün gəlirlər. Mən həmişə deyirəm ki, ticarətlə təhsil tutmaz". İrandan gələn tələbələr arasında zəif hazırlıqlı tələbələrin də olduğunu qonaqların nəzərinə çatdıran Ə.Əmiraslanov: "Əvvəlki illər belə tələbələrə bir sıra güzəştlər edilirdisə, indi bu məsələyə çox ciddi baxırıq. Onlarla ardıcıl izahat işləri aparmaqla yanaşı belə tələbələrin sayını minimuma endirməyə çalışırıq, bəzən də elə olur ki, belə tələbələri universitetdən kənarlaşdırırıq".

Tibb üzrə diplomların İranda tanınmamasının mənfi təsirinə də toxunan rektor bəzən universitetimiz haqqında yalnış təsəvvürün formalaşmasına diqqət yönəltdi. Dünyanın 28 ölkəsində çalışan məzunlarımızın uğurlarından söhbət açaraq İrandan bura gələn tələbələrin bilik səviyyəsinin aşağı olmasının səbəbini də qonaqlara izah etdi. Hal-hazırda İran universitetləri ilə əlaqələrin qənaətbəxş olmadığını söyləyən universitetin rəhbəri bu əlaqələri genişləndirməyin vacibliyini önə çəkərək dedi ki, İran universitetlərinin rektorlarını ölkəmizə dəvət etmək, müştərək konfranslar, simpoziumlar keçirmək imkanlarımız var.

Səmimi qəbula və çox faydalı söhbətə görə akademik Ə.Əmiraslanova təşəkkürünü bildirən səfir Möhsün Pak Ayin bildirdi ki bura gəlməzdən öncə universitetin klinikalarını gəziblər, onların iş şəraiti, mövcud potensial imkanları ilə yaxından



tanış olublar. Bu kilnikaların dünyanın inkişaf etmiş klinikalarından heç də geri qalmadığını dilə gətirən səfir dedi:" Biz heç bir ölkəni Azərbaycandan üstün tuta bilmərik. Çalışmalıyıq ki, əlaqələrimiz əməli olsun, universitetlərimz arasında tələbə, müəllim mübadiləsi aparılsın. Sizə təşəkkür edirik ki, iranlı tələbələrdən təhsil keyfiyyəti tələb edirsiniz. Biz nümayəndə heyəti ilə birlikdə tələbələrlə də görüşdük, onları narahat edən məsələlərlə maraqlandıq. Tələbələr burada göstərilən diqqət və qayğıdan çox razıdırlar".

Görüş zamanı gələcəkdə İran universitetləri ilə Azərbaycan Tibb Universiteti arasında əlaqələrin daha da möhkəmləndirilməsi, tələbələrin yataqxana təminatı, tələbə-müəllim mübadiləsinin aparılması və təhsil sahəsində bəzi məsələlərin nizamlanması məqsədilə əməkdaşlıq sazişinin imzalanması haqqında razılığa gəlindi.

**M.ƏLƏKBƏRLI**

# "Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti"

**Bu günlərdə Azərbaycan Tibb Universitetinin I Daxili xəstəliklər və reanimatologiya kafedrasının dosenti, Tədris Terapevtik Klinikasının kardiologiya şöbəsinin müdiri, tibb elələri üzrə fəlsəfə doktoru, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Qızıl Qələm" mükafatı laureatı Nağdəli Zamanovun "Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti" kitabının II cildi işıq üzü görmüşdür.**




Kitaba AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Nizami Cəfərov ön söz yazmışdır. Professor N.Cəfərov Heydər Əliyevin fəaliyyətinin, xüsusən XX əsr Azərbaycan siyasi natiqliyinin təşəkkül tapmasında mühüm rolu olduğunu qeyd edir. O, bu sahədə bir sıra elm adamlarının Heydər Əliyev və Azərbaycan nitq mədəniyyətinin XXI əsrdə hərtərəfli öyrənilməsinin əsasını qoyduqlarını da göstərir. Nağdəli Zamanovun "Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti" kitabının işıq üzü görməsinin də məhz bu elm adamlarının, fədakar insanların zəhməti sayəsində meydana gəlməsini də qeyd edir.

Kitabın I cildində Azərbaycan nitq mədəniyyətinin inkişafında, müdafiə olunmasında ümummilli lider Heydər Əliyevin əməyindən Azərbaycan dilinin danışıq, söz çalarlarından, az qala gənc nəsil tərəfindən unudulacaq sözlərin yenidən həyata qaytarılmasından bəhs edən giriş və sonluqlar, fəlsəfilik, səmimiyyət, qətiyyət, nikbinlik, poetizm, proqnozlar kimi elementlər və onun fərdi üslubu araşdırılmışdır. Həmçinin müəllif indiki dövrdə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin dilimizin qorunması və inkişafı ilə bağlı verdiyi sərəncamları da xatırlatmaqla dil haqqında dövlət siyasətini açıqlayıb, həm də dövlət və dil dialektik vəhdətini işıqlandırıb.

İxtisasca həkim olsa da, Nağdəli Zamanovun apardığı bu elmi-tədqiqat işləri dilçi-mütəxəssis alimlər tərəfindən rəğbətlə qarşılanmış, onun əməyi dəyərincə qiymətləndirilmişdir. Bunu kitabın AMEA-nın Mərkəzi Kitabxanasında Heydər Əliyev irsinin təbliği şöbəsində, həm də Aşıq Şəmşir Mədəniyyət Ocağı İctimai Birliyində təqdimatların keçirilməsində alimlərin, çıxış edən şair, yazıçı və jurnalistlərin kitab haqqında yüksək və dəyərli fikir söyləmələri də sübut edir.

"Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti" kitabının II cildi də ulu öndərin nitq və çıxışlarının araşdırılmasından bəhs edir. Bu cilddə də əsas nitq hissələrinin – say, əvəzlik, fel, zərf və köməkçi nitq hissələrinin - ədat, qoşma, bağlayıcı, modal söz kimi üslubiyyat yaratmaq xüsusiyyətləri Heydər Əliyev nitqlərində dəqiqliklə araşdırılmışdır.

Beləliklə, "Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti" kitabının II cildi 11 fəsildən ibarətdir. Bu fəsillər əsasən nitq hissələrinin, köməkçi nitq hissələrinin, frazeoloji birləşmələrin, sinonimlərin, əlavələrin, təkrarların, riotorik sualların, mürəkkəb cümlələrin, neologizmlərin və antroponomik müqayisələrin dilçilik elm tarixində gələcək nəsillər üçün mühüm əhəmiyyət kəsb edəcək elmi-tədqiqat əsəri kimi Azərbaycan dilinin nitq mədəniyyətinin inkişafında böyük rol oynayacaq.

**Saşa Əliyev,**
*Əsaslı Kitabxananın direktorunun, elmi işlər üzrə müavini, Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

# Azərbaycanda Elektron Səhiyyə Mərkəzi açılıb




**Dekabrın 29-da "Elektron Azərbaycan" Dövlət Proqramı çərçivəsində Səhiyyə Nazirliyinin Elektron Səhiyyə Mərkəzi açılıb.**

AzərTAc xəbət verir ki, açılış mərasimində səhiyyə naziri Oqtay Şirəliyev, Milli Onkologiya Mərkəzinin direktoru, akademik Cəmil Əliyev, Azərbaycan Tibb Universitetinin rektoru, akademik Əhliman Əmiraslanov və nazirliyin elmi-tədqiqat institutlarının rəhbərləri iştirak ediblər.

Səhiyyə Nazirinin nümayəndəsi Ləman Mursaqulova bildirib ki, mərkəzin yaradılmasında əsas məqsəd şəffaflığı qorumaq, vaxt itkisinə yol vermədən əhaliyə keyfiyyətli və səmərəli sosial xidmətlər göstərməkdir. Bir pəncərə sistemi ilə fəaliyyət göstərəcək mərkəzə müraciət edən vətəndaş birbaşa məmurla deyil, xüsusi təcrübəli mütəxəssislərlə ünsiyyətdə olacaq.

Nazirliyə yazılı müraciət etmiş şəxslər xüsusi quraşdırılmış tabloda müraciətinin hansı mərhələdə olmasını öyrənə biləcəklər. Bütün prosedurlar peşəkar və xüsusi təlim keçmiş əməkdaşlar tərəfindən icra olunacaqdır. Mərkəzdə ümumilikdə əlaqələndirici, operator və texniki heyət nəzərə alınmaqla 10 nəfər əhaliyə xidmət edəcəkdir. Aşağı mərtəbədə xüsusi otaq nəzərdə tutulub. Burada problemli vətəndaşlar qəbul olunacaq və onlara lazımi yardım göstəriləcək. Eyni zamanda, bu mərtəbədə uşaqlı anaların rahatlığı üçün xüsusi guşə hazırlanıb.

Mərkəzdə vətəndaşlar işə qəbulla bağlı, tibb işçilərinin sertifikasiyadan keçməsi və ixtisas kurslarına göndərilməsi, lisenziyaların verilməsi və.s. xidmətlərdən yararlana biləcəklər.

**Dekabrın 26 -da ATU-nun Tələbə Elmi Cəmiyyəti 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi gününə həsr edilmiş "İlin ən yaxşı tələbə elmi tədqiqatçısı adı uğrunda" müsabiqə keçirmişdir.**

# "İlin ən yaxşı tələbə elmi tədqiqatçısı adı uğrunda"

Toplantını giriş sözüylə açan universitetin rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov TEC-in yekun elmi konfrans keçirilməsinin artıq ənənəyə çevrildiyini, hər il bu müsabiqəyə ən yaxşı tədqiqat işlərinin təqdim olunduğunu vuğuladı: "Tələbə elmi işlərinə kafedralarda çox ciddi yanaşılmalıdır. Çünki insanlarda elmə həvəs, elmi- tədqiqatlara maraq gənc yaşlarında formalaşır. Mən müsabiqənin proqramına baxdım, maraqlı məruzələr olacaqdır. Amma bütün kafedralar burada təmsil olunmur. Bilirəm ki, belə toplantılar il boyu fakültələrdə də keçirilir, hazırlıqlar aparılır, tələbələrə aktual olan məruzələr verilir və onların içərisindən aktiv seçmələr olur. Lakin buna baxmayaraq kafedralarla bu istiqamətdə işimizi gücləndirməliyik. Bir sözlə tələbə elmi tədqiqatlarına ciddi yanaşmalıyıq. Əgər biz gənc yaşlarda tələbələrimizə elmi tədqiqatlara







həvəs yarada bilsək gələcəkdə onlar bacarıqlı elmi tədqiqatçı kimi yetişər, çalışdığı sahədə öz layiqli yerlərini tuta bilər. Ölkəmizdə gənc mütəxəssislərin elmi tədqiqat işlərinə cəlb olunması üçün son vaxtlar xeyli işlər görülüb. Bu yaxınlarda respublikamızda ilk dəfə olaraq "Elm Festifalı" keçirildi. Bu tədbir bizim universitetdə də çox təntənəli şəkildə qeyd olundu. Mən onda gördüm ki, salon dolub, hətta yer olmadığından bir çox insanlar ayaq üstə dayanıb məruzəçiləri maraqla dinləyirlər. Orada bizim gənc mütəxəssislərimiz və kafedra müdirləri biri-birindən dəyərli məruzələr etdilər. Hesab edirəm ki, bu tədbir gənclərimiz üçün çox böyük məktəb oldu. Burada məqsəd elmi populyarlaşdırmaq üçün atılmış ən doğru addım idi. Bundan başqa bilirsiniz ki, bu ayın 19-da ölkə tarixində ilk dəfə olaraq Azərbaycan alimlərinin I qurultayı keçirildi. Həmin qurultayda dövlət qurumlarının nümayəndələri, tanınmış alim və mütəxəssisləri, həmçinin dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı alimlər iştirak edirdilər. Qurultayda elmimizin qarşısında duran problemlər barədə müxtəlif elm sahələri üzrə çıxışlar oldu. Nəzərə çatdırıldı ki, elm sahəsində daha hansı işlər görülməlidir, ölkəmiz üzrə hansı elm sahəsi prioritetdir, hansı elm sahəsinə daha çox diqqət yetirilməlidir, hansı sahədə uğurlarımız var, və yaxud hansı elm sahəsi geridə qalır və bu kimi məsələlər geniş müzakirə olundu. Bütün bunlar onu deməyə əsas verir ki, tələbələrimizin gələcəkdə elmi tədqiqat işlərinə cəlb olnması üçün indidən əməli tədbirlər həyata keçirməliyik. Çünki bu günün gənc, istedadlı tədqiqatçısı sabahın mükəmməl alimidir".

Əhliman Əmiraslanov çıxışının sonunda bütün universitet ictimaiyyətini və eləcə də tədbir iştirakçılarını Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və qarşıdan gələn Yeni il münasibətilə təbrik etdi, müsabiqənin işinə uğurlar dilədi.

Sonra universitetin elmi işlər üzrə prorektoru, ə.e.x., professor İbrahim İsayev reqlamenti elan edərək sözü tədqiqatçı tələbələrə verdi.

Əczaçılıq fakültəsinin IV kurs tələbələri Yana Parfyonova və Sərvinaz Hacıyeva *"Dəmir nanohissəciklərin alınması və stabilləşdirilməsi. Kəkilli useniya (Usenya comosa) şibyəsindən alınan usnin turşusunun nanostrukturlaşdırılması və onun bioloji aktivliyinin tədqiqi"* (**rəhbərlər:** professorlar U.Həsənova və Y.Kərimov, farmakoqnoziya və botanika kafedrası), I mualicə profilaktika fakültəsinin V kurs tələbəsi İsmayıl Atayev *«Использование аденовирусов с целью предотвращения мутаций, ведущих к поликистозу яичников»* (**rəhbər:** dosent İ.Mahalov I mamalıq-ginekologiya kafedrası), II mualicə-profilaktika fakültəsinin II kurs tələbəsi Məhərrəm Alimli *"Gənclər arasında yayılmış depressiya halı"* (**rəhbər**: t.ü.f.d. A.Ənsərova tibbi biologiya və genetika kafedrası), stomatologiya fakültəsinin V kurs tələbəsi Məmməd Əmin Həmzəli *"Çənə oynaq çıxması sınıqlarının cərrahi müalicəsinin yaxın və uzaq nəticələri"* (**rəhbər:** professor Y.Yusubov və assistent O.Mehdiyev ağız və üz-çənə cərrahiyyəsi kafedrası), tibbi-profilaktika fakültəsinin IV kurs tələbələri Aytən Məmmədova və Gülnur Qədirova *"Tələbələrin cinsi yolla yoluxan xəstəliklər haqqında məlumat səviyyəsinin öyrənilməsi"* (**rəhbər:** dosent S.Cavadov mikrobiologiya və immunologiya kafedrası), pediatriya fakültəsinin VI kurs tələbəsi Könül Novruzova isə *"Uşaqlarda abdominal kriptorxizmin diaqnostika və müalicəsində laporaskopiyanın əhəmiyyəti"* (**rəhbər:** dosent R.Poluxov uşaq cərrahlığı kafedrası) mövzularında müasir tibbin aktual sahələrinə dair məruzələrlə çıxış etdilər.

Hər məruzə münsiflər tərəfindən fərdi qaydada qiymətləndirildikdən sonra tədqiqatçı tələbələrin ayrı-ayrılıqda topladıqları yekun ballar müəyyənləşdirildi.

Sonda bütün müsabiqə iştirakçılarının hamısı ilk yerlərə layiq görüldüyündən onlara diplom və hədiyyələr təqdim olundu.

Tədbirdə universitetin rəhbərliyi, kafedra müdirləri, dekanlar və tədqiqatçı tələbələrin elmi rəhbərləri iştirak edirdilər.

**MƏNSUR**

## Kiyevdə akademik Zərifə Əliyeva adına Beynəlxalq Elmi-Tibbi Mərkəz tərəfindən həkimlər üçün işlənib hazırlanmış tədris proqramı təsdiq edilib

**◆ Akademik Zərifə Əliyeva adına Beynəlxalq Elmi-Tibbi Mərkəz tərəfindən həkimlər üçün işlənib hazırlanmış, dünya standartlarına müvafiq tədris proqramı Ukrayna paytaxtındakı P.L.Şupik adına Diplomdansonrakı Təhsil Milli Tibb Akademiyasının Elmi Şurasının qərarı ilə təsdiq edilib.**



Elmi Şuranın həmin qərarına əsasən, Ukrayna Elmi-Tədris İnfeksion Nəzarət Mərkəzi yaradılıb. Mərkəzin rəhbəri vəzifəsinə professor Aydın Salmanov seçilib. Bu Mərkəzdə həkimlərin təhsilində akademik Zərifə Əliyeva adına Beynəlxalq Elmi-Tibbi Mərkəzin və P.L.Şupik adına Diplomdansonrakı Təhsil Milli Tibb Akademiyasının müəllimləri iştirak edəcəklər.

Akademik Zərifə Əliyeva adına Beynəlxalq Elmi-Tibbi Mərkəzin rəhbəri, həmvətənimiz, tibb elmləri doktoru, professor Aydın Salmanov AzərTAc-a müsahibəsində əmin olduğunu bildirib ki, Kiyevdə həkimlər üçün tədris kursu Avropa İttifaqının tələblərinə riayət edilməklə yüksək səviyyədə keçəcəkdir.

Professor qeyd edib ki, bu tədris kursu səhiyyə işinin təşkilatçıları, infeksion nəzarət üzrə mütəxəssislər, hospital epidemioloqları, müxtəlif ixtisaslar üzrə həkimlər, mikrobioloqlar, klinik farmakoloqlar, mamalar, tibb bacıları, habelə I-IV dövlət akkreditasiya səviyyəli tibbi profilli orta və ali təhsil müəssisələrinin müəllimləri və tələbələri üçün nəzərdə tutulub.

A.Salmanov vurğulayıb ki, kurslarda tibbi xidmətlər göstərilməsi zamanı pasiyentlərin və tibbi heyətin infeksion təhlükəsizliyinin təmin edilməsi və tibb müəssisələrində infeksion nəzarət sisteminin tətbiq edilməsi ilə bağlı məsələlər müzakirə olunacaq, xəstəxanadaxili infeksiyaların profilaktikasına dair tövsiyələr veriləcək, tibbi yardımın, xəstələrə sübut təbabəti prinsiplərinə əsaslanan qulluq göstərilməsinin epidemioloji baxımdan təhlükəsiz standartları və alqoritmləri nəzərdən keçiriləcəkdir.

## İstanbulda "Türk tibb tarixində gənclik sirləri" mövzusunda konfrans keçirilib




**◆ Türk Dünyası Araşdırmaları Vəqfi tərəfindən təşkil olunan konfransda elm və mədəniyyət xadimləri, səhiyyə işçiləri, xalq təbabəti ilə məşğul olanlar şəxslər, şəhər ictimaiyyətinin təmsilçiləri iştirakı ediblər.**

Konfransda professor Ayşegül Dəmirhan Erdemirin "Türk tibb tarixində gənclik sirləri" mövzusunda məruzəsi dinlənilib. El arasında türkəçarə kimi tanınan qədim türk tibb elminin yaranması və inkişafı istiqamətləri, günümüzdə istifadə olunma imkanları barədə fikir və mülahizələrini bölüşən professor diqqətə çatdırıb ki, tarixin bütün dövrlərində müalicəvi təbiət bitkilərinin faydalı cəhətləri türk xalqları tərəfindən araşdırılıb və onların istifadə qaydaları bu günümüzə kimi gəlib çatıb.

Ulularımızın bitki örtüyündəki minlərlə otlardan, gülçiçəklərdən, bitki köklərindən, tərəvəz və meyvələrdən istifadə edərək xəstəliklərini bitkilərdən hazırladıqları dərmanlarla müalicə etdiklərini diqqətə çatdıran professor xalq təbabəti sahəsində elmi araşdırmalarının əks olunduğu əsərlərindəki maraqlı məqamlardan da bəhs edib.

*ATU-nun tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev imtahan-nəzarət qrupunun üzvləri ilə görüşüb. O, imtahan sessiyanın müddətinin 5 həftədən 3 həftəyə endirildiyini xatırladaraq bildirib ki, bu baxımdan nəzarətçilərin üzərinə daha çox məsuliyyət düşür: "Yəni imtahan günlərinin sayı azalsa da, tələbələrin sayı ilbəil artır. Test mərkəzində kompüterlərin sayı isə əvvəlki qədərdir. İmtahanlar dekabrın 29-da başlayacaq və 2 növbədə aparılacaq. Yanvarın 3-dən başlayaraq bütün günlərə, hətta bazar günlərinə də imtahan salıncaq. Ona görə də fəal işləyən, intizamlı gələn nəzarətçilərin əməyi nəzərə alınacaq, onlara əlavə maaş yazılacaq".*

# QIŞ İMTAHAN SESSİYASINA START VERİLDİ



Ötən illərdə yol verilən müəyyən qüsurların təkrarlanmaması üçün nəzarətçilərə daha diqqətli olmağı tövsiyə edən prorektor qeyd edib ki, təhsil nazirinin qərarı ilə ictimaiyyət nümayəndələri də müşahidəçi kimi imtahanın gedişini izləyə bilərlər. Eyni zamanda rektorun əmrinə görə kafedra müdirlərinin, professorların imtahana gəlmək hüquqlarının da olduğunu bildirib.

İmtahan-nəzarət qrupunun rəhbəri, dosent Kamandar Yaqubov nəzarətçilərin üzərinə düşən konkret vəzifələrdən



danışıb. Bildirib ki, onların hər biri səhər saat 9-a işləmiş nəzarət zalında olmalı, işə gələn əməkdaşlar ad və soyadlarını yazaraq imzaları ilə təsdiqləməlidir. "Belə olduğu təqdirdə şəffaflıq təmin olunur və əməkdaşlar işə gəldiklərini sonra iddia edə bilmirlər. İmtahan başlamazdan öncə biz zalda 2-3 dəqiqəlik söhbət apararaq əməkdaşın hansı zala daxil olacağını müəyyənləşdiririk"-deyən dosent imtahanların vaxtında başlanması üçün nəzarətçilərin işə məsuliyyətlə yanaşmasının vacibliyini vurğulayıb.



Kamandar müəllim imtahanın gedişatı zamanı vacib məqamlara da toxundu. Qeyd etdi ki, hər sırada mütləq bir nəzarətçi olmalıdır ki, imtahanı başlaya bilək: "Əgər hansı sırada nəzarətçi yoxdursa, imtahan başlasa da, biz həmin sıraya tələbə buraxa bilmərik. Çünki imtahanın gedişi səs yazılmaq şərtilə görüntülü lentə alınır. Hansısa sırada problem yaranarsa, səhərisi və ya bir neçə gün sonra problem yaranan sırada kimin nəzarətçi olması barədə mütləq rəhbərliyə məlumat verməliyik".

İmtahan zalında nəzarətçinin bir-biriylə və ya tələbələrlə danışması, bayıra çıxmasının qadağan olduğunu bildirən imtahan nəzarət qrupunun rəhbəri bu qaydalara ciddi riayət oilunduğunu qeyd etdi: "Nəzərə almaq lazımdır ki, bir gündə 2500 tələbə imtahan verirsə və hər ailədə orta hesabla 4 nəfər varsa, 10 000 adam həmin imtahan haqqında fikir mübadiləsi aparır. Ona görə çalışırıq ki, istənilən xoşagəlməz hal universtetin imicinə zərər vurmasın".

Virtual Test Mərkəzinin rəhbəri, dosent Şahin Bayramov da nəzarətçilərin üzərinə düşən vəzifələrdən danışaraq bildirdi ki, nəzarətçi tələbədə mobil telefon görsə, onu dərhal imtahan zalından çıxarmalıdır. İki tələbə eyni fəndən imtahan verərsə, yanaşı düşməməlidir. Onun sağında-solunda əyləşən tələbələr digər fənlərdən imtahan verməlidir. Nəzarətçi eyni zamanda bilməlidir ki, əgər iki sualın cavabı kompüterdə eyni, yaxud sualın cavabı səhv olarsa, o istiqamətdə tələbə ilə diskussiya aparmağa icazə yoxdur. Tələbə həmin sualı yadında saxlayıb imtahan qurtarandan sonra apelyasiya komissiyasına müraciət etməlidir. Tələbə öz səhifəsinə girəndən sonra yerini dəyişə bilməz. İmtahan qurtarandan sonra tələbə nəzarətçinin icazəsi olmadan dura bilməz. Telefonlar sönmüş vəziyyətdə olmalıdır. Tələbələrə qarşı kobud davranmaq olmaz. Tələbələrin 90 faizi, xüsusilə də yuxarı kurslarda oxuyanlar imtahan qaydalarını gözəl bilirlər. Ümidvarıq ki, öz məsuliyyətlərini yaxşı anlayan nəzarətçilərin köməyi ilə imtahanların yüksək səviyyədə keçməsinə nail olacağıq.

Nəzarətçilərin sualları da ətraflı cavablandırıldı.

**Qabil ABDULLAYEV**

## BÖYÜK ELMİ ŞURADA

# TƏHSİL İSLAHATLARI VƏ ONUN HƏYATA KEÇİRİLMƏSİNDƏ KOLLEKTİV QARŞISINDA DURAN VƏZİFƏLƏR MÜZAKİRƏ OLUNDU

(əvvəli səh. 2-də)



naşmaq lazımdır. Bəzi kafedra müdirlərinin müəllimlərin işinə yersiz müdaxilə etməsindən təəssüfləndiyini deyən universitet rəhbəri onları köhnə stereotiplərdən əl çəkə bilməməkdə günahlandırdı.

Müəllimlərimizin səviyyəsinin və nüfuzunun yüksəlməsini önə çəkən rektor tədrisin keyfiyyətinə mənfi təsir göstərən amilləri qabardaraq dərsliklərlə bağlı ortaya çıxan problemlər üzərində ayrıca dayandı. Eyni zamanda müəlliflərə məqalələrini reytinqi yüksək olan jurnallarda çap etdirməyi məsləhət gördü. İmtahanların sayını azaltmaq istiqamətində də mühüm addımlar atıldığını vurğulayan rektor əməkdaşları qrant layihələrində fəal iştirak etməyə çağırdı və əczaçılıq fakültəsinin bir milyon manat məbləğində qrant layihəsini udmasını çox yüksək qiymətləndirdi.

Ümumilikdə Tədris Metodik və İnnovasiya şöbəsinin fəaliyyətindən razı qaldığını bildirən akademik Ə.Əmiraslanov kredit sisteminə keçidlə əlaqədar universitetdə tədrisin keyfiyyətinə nəzarət, qeydiyyat, qiymətləndirmə və monitorinq şöbələrinin yaradılacağını da şura üzvlərinin diqqətinə çatdırdı..

Böyük Elmi Şura müsabiqə məsələlərini həll etməklə öz işini yekunlaşdırdı.

**Arif MƏMMƏDLİ**

**Fotolar Cənnətalı Çingizindir**

# Beşinci "Elektron təhsil" Respublika müsabiqəsinin qalibləri mükafatlandırılıb

◆ **Dekabrın 26-da Təhsil Nazirliyində beşinci "Elektron təhsil" Respublika müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.**



AzərTAc xəbər verir ki, tədbirdə təhsil nazirinin müavini Ceyhun Bayramov çıxış edərək bu il müsabiqənin birinci mərhələsinə 1.104 layihənin təqdim olunduğunu, onlardan üçüncü mərhələyə 300 işin seçildiyini bildirib.

Qeyd edilib ki, beşinci "Elektron təhsil" Respublika müsabiqəsi 3 əsas istiqamət və 7 nominasiya üzrə təşkil olunub. Yüksək bal toplayan namizədlər təşkilat komitəsi qarşısında öz işlərini nümayiş etdiriblər. Son nəticədə 21 nəfər qalib elan olunub, 47 nəfərin işi isə fərqləndirilib.

Müsabiqəyə marağın getdikcə artığını söyləyən nazir müavini bildirib ki, indiyədək müsabiqənin rəsmi internet səhifəsində 7 mindən çox müəllim, 2 minə yaxın tələbə, beş yüzdən çox şagird və 638 valideyn qeydiyyatdan keçib.

C.Bayramov bildirib ki, müsabiqənin məqsədi Azərbaycanın təhsil sistemində informasiya texnologiyalarının daha geniş istifadəsini stimullaşdırmaq və müəllimlərin bu sahəyə marağını artırmaqdır. Eyni zamanda, bu sahədə təhsil ictimaiyyətini məlumatlandırmaq, tədris məqsədləri üçün internetdən istifadənin yeni formalarını üzə çıxarmaq, tədris prosesində informasiya texnologiyalarından fəal istifadə edən müəllimləri həvəsləndirməkdir.

Vurğulanıb ki, son illər informasiya-kommunikasiya texnologiyalarının (İKT) təhsildə tətbiqi sahəsində dövlətimiz tərəfindən mühüm layihələr həyata keçirilir, təhsil müəssisələrimiz İKT avadanlıqları ilə təchiz olunur.

Tədbirdə beşinci "Elektron təhsil" Respublika müsabiqəsi, onun şərtləri barədə ətraflı məlumat verilib. Qeyd edilib ki, cari ilin sentyabrın 8-dən başlanılan müsabiqənin sponsorları "AZEDUNET", "Edumedia", "Ultra", "Mədəd Azərbaycan", "İntel" korporasiyasının "Gələcək üçün təhsil" proqramı, "Nar Mobile" və "Dr. Web" şirkətləridir.

Qaliblərə diplom, noutbuk, planşet və digər mükafatlar təqdim edilib. Fərqlənən iştirakçılara da müxtəlif hədiyyələr verilib.

# İtalyan professorlar ATU-da

**İtaliyanın Genuya Universitetinin professorları Azərbaycan Tibb Universitetinin qonağı olub. ATU-nun professor-müəllim heyəti ilə görüş zamanı təhsil müəssisələri arasında əməkdaşlıq perspektivləri müzakirə edilib.**



Səfər zamanı professorlar Anjelo Musaio və Marco Frascio təmsil etdikləri universitetin tədris sistemi haqqında mühazirə oxuyublar. Bu zaman müasir dünyada təhsilin rolundan, dünya universitetləri arasında təhsil əlaqələrinin, təcrübə, müəllim-tələbə mübadiləsinin əhəmiyyətindən danışılıb.

Həmçinin, ATU ilə Genuya Universiteti arasında mövcud müqavilənin şərtləri də müzakirə olub. İtaliya tərəfinin nümayəndələri universitetlər arasında qarşılıqlı münasibətlərin daha da genişləndirilməsi, əlaqələrin digər istiqamətlərdə də inkişaf etdirilməsi təşəbbüsü ilə çıxış edib.

Səfər zamanı italyan mütəxəssislər həmçinin ATU-nun Tədris Cərrahiyyə Klinikası ilə tanış olub, buradakı Tədqiqat bacarıqları laboratoriyasının işi ilə yaxından maraqlanıblar.

Qeyd edək ki, ATU ilə Genuya Universieti arasında TEMPUS proqramı çərçivəsində uğurlu əməkdaşlıq qurulub. İndiyə qədər layihə çərçivəsində Genuya Universiteti ilə birlikdə tədris proqramlarının keyfiyyətin yoxlanmasına dair bir sıra müzakirələr aparılıb. Ümumilikdə ATU Avropa Şurasının TEMPUS proqramı çərçivəsində 5 layihənin iştirakçısı olub.

# ATU-da "Ana südü və əmizdirmənin əhəmiyyəti" mövzusunda təlimlər keçirilib

**Dekabr ayının 26-da Azərbaycan Tibb Universitetində "Xoş gəldin körpə" Ana-Uşaq Sağlamlığını Dəstəkləmə layihəsi çərçivəsində təlimlərə start verilib. Layihə Türkiyə Respublikası Başnazirlik Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) tərəfindən keçirilir.**



Türkiyədən dəvət olunmuş təlimçi-mütəxəssislərin iştirakı ilə "Ana südü və əmizdirmənin əhəmiyyəti" mövzusunda təlim proqramında könüllülər iştirak edəcək. Dekabrın 30-dək davam edəcək təlimlərdə könüllülərə əhali arasında maarifləndirmə proqramında "əmizdirmə məsləhətçisi" qismində iştirak edə bilmək üçün məqsədilə bacarıqlar aşılanır.

Təlimlə yanaşı, həkim və tibb bacıları üçün "Neonatal reanimasya" mövzusunda təlim proqramı, yeni doğulan körpələr üçün eşitmə testi ilə bağlı təlimlər təşkil olunub.

"Xoş gəldin körpə" layihəsi çərçivəsində indiyədək bir çox tədbirlər baş tutub. Bu ilin mayında Bakıda Türkiyəli təlimçi mütəxəssislərin iştirakı ilə ana və uşaq sağlamlığına təhlükə yaradan irsi xəstəliklər mövzusunda həkim və tibb bacıları üçün təlim proqramı keçirilib.

Layihə çərçivəsində həmçinin "Elmin ən son yenilikləri işığında sonsuzluq probleminin həlli" mövzusunda konfrans, "Neonatal reanimasya" mövzusunda təlimlər reallaşıb. Bundan əlavə, tibb bacıları və analar üçün "Ana südü və əmizdirmənin əhəmiyyəti" mövzusunda əmizdirmə məsləhətçiliyi təlim proqramı da keçirilib.

Qeyd edək ki, TİKA-nın dəstəyi ilə bu ilin sentyabrında Azərbaycandan 2 təlimçi həkim və 1 təlimçi mama-tibb bacısı üçün Türkiyədə "Neonatal reanimasiya" mövzusunda təlim proqramları təşkil olunub.

# Tibb Universitetindən kimsəsiz uşaqlara dəstək

**◆ Valideyn himayəsindən məhrum olmuş uşaqlar universitetin Stomatoloji Klinikasında müayinə və müalicə olundu**



Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il öncəsi Azərbaycan Tibb Universiteti kimsəsiz uşaqları özünəməxsus şəkildə sevindirib. Belə ki, universitetin rektoru, akademik Əhliman Əmiraslanovun dəstəyi ilə ATU-nun Stomatoloji Klinikasında valideyn himayəsindən məhrum olmuş uşaqlara xeyriyyəçilik məqsədi ilə stomatoloji xidmət göstərilib.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünyada 5 milyarda yaxın insanın stomatoloji problemləri var. Azərbaycanda isə əhalinin təxminən 90 faizi kariyesdən əziyyət çəkir və bu göstəricinin böyük bir hissəsini uşaqlar təşkil edir. Xüsusilə də, valideyn himayəsindən məhrum olmuş uşaqlar arasında stomatoloji problemlərə daha çox rast gəlinir. Bunu nəzərə alan ATU-nun rəhbərliyi universitetin Stomatoloji Klinikasında kimsəsiz uşaqlar üçün xüsusi kampaniya təşkil edib.

Kampaniya çərçivəsində bu gün "Ümid yeri" uşaq sığınacağı və reabilitasiya mərkəzinin sakinlərinə ödənişsiz tibbi xidmət göstərilib. Stomatoloji Klinikanın direktoru Alqış Səfərovun sözlərinə görə, gün ərzində sığınacağın 25-dən çox sakini ən müasir tibbi avadanlıqlarla təchiz edilmiş diş kabinetlərində müayinə və müalicə olunublar: "Müayinə nəticəsində uşaqların əksəriyyətində kariyes boşluğu müəyyənləşdirilmişdir. Kiçik yaşlı uşaqlarda kariyes, pulpit, diş ərpi aşkarlanıb və müvafiq stomatoloji yardım göstərilib".

A.Səfərov qeyd edir ki, uşaq evlərinin sakinlərində stomatoloji problemlər daha çox olur: " Uşaqların ağız boşluğunda yaranmış gigiyenik problemlər adətən dişlərə düzgün qulluq edilməməsi ilə əlaqədar olur. Süd dişləri tökülənə qədər uşaqların dişləri ciddi həkim nəzarəti altında olmalıdır. Odur ki, ATU rəhbərliyi tərəfindən belə bir qərar verildi. Bu təşəbbüs uşaq evlərində qalan himayəsiz uşaqların sağlamlığının qorunmasına yönəlib".

ATU-nun Stomatoloji Klinikası gələcəkdə digər uşaq evlərindən də müraciətləri qəbul etməyə hazırdır.

**ATU-nun mətbuat xidməti**

# Stomatoloji Klinikada eCligner metoduna aid konfrans keçirilib

**Dekabrın 18-də Azərbaycan Tibb Universitetinin Stomatoloji Klinikasında universitetimizdə təhsil alan iranlı tələbələrin elmi, mədəni və idman birliyinin təşəbbüsü ilə "eCligner-diş sırasında olan əyriliklərin şəffaf kappalarla müalicəsi" mövzusunda elmi-praktiki konfrans keçirilib.**

Tədbirin əvvəlində Klinikanın direktoru Alqış Səfərov çıxış edərək konfransın mövzusu haqqında məlumat verib. Onun sözlərinə görə, hazırda diş sırasında olan əyriliklərin şəffaf kappalarla müalicəsi stomatologiyanın ən müasir kəşflərindən biri sayılır. Bu metodla ağrısız və estetik cəhətdən daha gözəl formada diş əyriliklərini aradan qaldırmaq mümkün olur.

Daha sonra Stomatoloji Klinikanın həkim- stomatoloqu Elnur Həsənli qeyd edilən mövzuda məruzə edib. Natiq çıxışında bildirdi ki, bu metod ilk dəfə Cənubi Koreyada 1998-ci ildə tətbiq edilib. Onun sözlərinə görə, ilk şəffaf plastik lövhələr 20-ci əsrin ortalarında, ilk dəfə 1998-ci ilin sonlarında koreyalı professor Tae Weon Kim ortodontik müalicə almış xəstələrdə residiv hallarının müalicəsində istifadə etmişdir.








Eyni ildə bir pasientin bütün müalicəsini şəffaf lövhələr vasitəsi ilə tamamlamışdır.Stomatologiyaya aid dərc olunmuş ədəbiyyatlara nəzər salsaq buna bənzər şəffaf kappaların iş mexanizmi və istehsal prinsipləri haqda bir çox məqalələrə rast gəlmək mümkündür (McNamara, Ponits, Qraber və s.).

eCligner Aligner şəffaf kappalar ilə müalicə planı (set up) xüsusi kompyuter proqramı və eyni zamanda Tae Weon Kimin şəxsi nəzarəti ilə tərtib olunur. CAPRO (IV-Tech, Kore) adlı proqram vasitəsi ilə kompyuter ekranında üst-üstə gətirilən iki rəqəmsal şəkil ilə hər bir dişin hərəkətini hesablamaq mümkündür. Xəstə fərqli qalınlığa (0.5;0.62;0.74;0) malik 3 ədəd kappaların hər birini bir həftə taxmalıdır. Müalicənin müddəti qüsurun böyüklüyündən asılı olaraq müxtəlif olur.

eCligner texnologiyası müasir stomatologiyada yeni bir mərhələ sayılır. Qeyd olundu ki, bu metod xüsusilə yeniyetmələr üçün əlverişlidir. Çünki metal breketlər, məftillər estetik baxımdan ağızda gözəl görünmür, bir sıra narahatlıqlar yaradır. Şəffaf kappalarla bağlı isə belə problemlər yaşanmır. Bu üsulla diş sırasında əyrilikləri həm qısa müddətdə, həm də estetik diskomfort yaratmadan aradan qaldırmaq mümkündür. Bu zaman şəffaf protezlərlə müalicə yumşaq şəkildə, mərhələli olaraq aparılır. Şəffaf kappalar çox nazik materialdan hazırlanır və hər kəsin ağız ölçüsü üçün fərdi olaraq hesablanır.

Konfransda eCligner texnologiyasının digər üstünlükləri, tətbiqi ilə bağlı məsələlər haqqında fikirlər səsləndirildi. Sonda həkim stomatoloq Elnur Həsənli konfrans iştirakçılarının suallarını cavablandırdı.

Tədbirdə iranlı tələbələrlə birgə yerli və türkiyəli tələbələr də iştirak ediblər.

**M.CAVADOV**

# Tənəffüs sistemi xəstəliyi uşaqlara daha çox əziyyət verir

**Son vaxtlar havaların soyuq keçməsi ilə əlaqədar uşaqlar arasında qripəbənzər xəstəlik yayılıb. Xəstəlik əsasən qızdırma ilə başlayır, sonra isə öskürəyə keçir, lakin burunaxma və asqırma kimi əlamətlər olmur. Bu isə valideynləri narahat edir.**

Bununla bağlı Azərbaycan Tibb Universitetinin terapevtik və pediatrik propedevtika kafedrasının assistenti, tibb üzrə fəlsəfə doktoru Mədinə Hacıyeva bildirib ki, ümumiyyətlə, yuxarı tənəffüs yollarının infeksion xəstəlikləri el arasında həmişə qrip adlandırılıb. Əslində bu xəstəlikləri müxtəlif viruslar, nadir hallarda isə bakteriyalar törədir. Törədicidən asılı olaraq xəstəliyin əlamətləri də fərqli ola bilər. Qızdırma infeksion amilə qarşı orqanizmin normal cavab reaksiyasıdır. Burunaxma və asqırma isə tənəffüs yollarının infeksiyasını törədən bütün viruslara mütləq şəkildə xas deyil. Əlbəttə, bu, qrip xəstəliyi deyil. Lakin qeyd etməliyəm ki, heç qrip xəstəliyində də burundan ifrazat olmur.

Xəstəliyi törədən səbəblərə gəlincə, pediatr deyib ki, bəzi əlamətlərə fikir vermək lazımdır. Düzdür, hər bir xəstədə bəlğəmin bakterioloji analizini aparmaq mümkün olmadığına görə törədicini də təyin etmək olmur. Lakin bəlğəmin müayinəsi zamanı daha çox mikoplazma infeksiyasına rast gəlinir. Bu infeksiyanın əsas əlamətlərindən biri tutmaşəkilli boğucu öskürək olduğuna görə çox vaxt xəstəliyi göyöskürəyə bənzədirlər. Bəzi hallarda isə virus bakterial mənşəli, yəni, qarışıq törədici xəstəliyə səbəb olur.

Həkim vurğulayıb ki, bəzən valideynlər belə hallarda uşaqları həkimə aparmayıb özləri qızdırmanı salmaqla kifayətlənirlər. Ancaq istənilən halda həkimlə əlaqə saxlamaq lazımdır. Çünki son zamanlar atipik pnevmoniyalar geniş yayılıbdır ki, bunların da törədiciləri xlamidiya, mikoplazma və virus ola bilər. Qızdırma çox yüksəkdirsə, həkim gələnə qədər parasetamol



**Mədinə HACIYEVA**

tərkibli dərman preparatlarından istifadə etmək olar. Əgər qızdırma ilə yanaşı, bədəndə ağrı da varsa, ibuprofen tərkibli preparatlar məsləhətdir. Digər dərman vasitələrini isə yalnız xəstəni hərtərəfli müayinə etdikdən sonra həkim təyin etməlidir.

Müraciət edənlər arasında tənəffüs yolları xəstəliklərinə daha çox rast gəlindiyini bildirən M.Hacıyeva qeyd edib ki, böyüklərdən fərqli olaraq tənəffüs sistemi xəstəliyi, hətta ən yüngül halda belə, uşaqlara daha çox əziyyət verir.

**Günel ASLANOVA**

# Britaniya alimləri inkişaf pozuntusu ilə bağlı 12 gen tapıblar

**Qüsurlar multifaktor patologiyadır. Genetik mutasiyalar və düzgün fəaliyyət göstərməyən genlər bəzi xəstəliklərə müəyyən təsir göstərir. İnkişaf qüsurlarının çoxu uşaq doğularkən və ya ana bətnində ikən özünü büruzə verir.**



Britaniya tədqiqatçıları müxtəlif inkişaf pozuntuları olan 1133 uşağın və onların valideynlərinin genomlarını təhlil ediblər. AzərTAc "Zee News" saytına istinadən xəbər verir ki, ürək qüsurları və qıcolmalarla, psixi inkişaf problemləri ilə müəyyən əlaqəsi olan 12 gen aşkar edilib.

Hələlik bu genlərin xəstəliklərə təsiri dərəcəsini müəyyən etmək çətindir, amma bu istiqamətdə iş aparılır. Alimlər əldə edilənlərlə kifayətlənməməyi və 12 min ailədə genetik təhlil aparmağı planlaşdırırlar.

Qlobal araşdırma ciddi inkişaf qüsurlarının əksəriyyətini və onların formalaşmasında genlərin rolunu nəzərdən keçirməyə imkan verəcəkdir. Ola bilsin ki, gələcəkdə bu xəstəlikləri ən ilkin mərhələlərdə aşkar etmək və patologiyanın qarşısını almaq üçün genomda təshih aparmaq mümkün olacaqdır.

# Ömür müddətimiz artsa da, uşaqlarımız artıq çəkidən əziyyət çəkir

**2012-ci ildə dünyaya gələn qız, çox güman, təqribən 73 il, oğlan isə 68 il ömür sürəcək ki, bu rəqəm də 1990-cı ilin oxşar göstəricisindən altı il çoxdur. Həmin vaxtdan etibarən inkişaf etməkdə olan ölkələrdə ömür müddəti doqquz il uzanıb. Gəlir səviyyəsi yüksək olan ölkələrdə bu rəqəmlər fərqlənir: 0,2 ildən (Rusiya) 9,2 ilə (Koreya Respublikası) qədər. Bu barədə məlumat DST-nin səhiyyə sahəsində statistikasında yer alıb.**



AzərTAc xəbər verir ki, DST-nin məlumatına görə, ürəyin işemiya xəstəliyi, respirator xəstəliklər və insult vaxtsız ölümün əsas səbəbləridir.

Ömür müddətimiz artsa da, uşaqlarımız getdikcə daha çox artıq çəkiyə meyilli olur. DST-nin məlumatına görə, 2012-ci ildə yaşı beşdən aşağı olan 44 milyon uşaq (bu yaşda olan uşaqların təqribən 7 faizi) artıq çəkidən və ya piylənmədən əziyyət çəkib. Bu isə fəsad və vaxtsız xəstəliklər riskini artırır.

Eyni zamanda bu il 6,6 milyon uşaq beş yaşına çatmayıb. Hərçənd 2000-ci ildən başlayaraq ölüm halları hər min uşağa 75-dən 48-ə qədər azalıb.

# Qış aylarının ən faydalı tərəvəzi

**Qış aylarında kərəvizdən bol miqdarda istifadə etsək də, onun faydalarının bir çoxundan xəbərsizik. Bu tərəvəzin 95 faizi sudan ibarətdir. Ona görə də xüsusilə arıqlamaq istəyənlər bol-bol kərəviz yeməlidirlər. Deməli olar ki, bütün pəhriz reseptlərində adı çəkilən kərəviz liflə zəngindir. Bunun sayəsində həzm sistemini daha sürətlə işləməyə məcbur edir. Bu da o deməkdir ki, nə qədər çox kərəviz yesəniz, o qədər tez arıqlaya bilərsiniz.**



Bu tərəvəzi yeməklərdə və salatlarda istifadə edə bilərsiniz. Həmçinin qreyfurt, kahı, kələm, turp, soğan kimi tərəvəzlərlə birlikdə suyunu çıxararaq içə bilərsiniz.

Kərəvizlə hazırladığınız yeməyə portağal da əlavə etsəniz, qış aylarında soyuqlamadan və qripdən özünüzü müdafiə etmiş olarsınız.

Kərəvizin faydası təkcə arıqlatmaqdan ibarət deyil.

Kərəviz A, B, C, D, E, K kimi vitaminlər baxımından olduqca zəngindir. Bu tərəvəzdə həmçinin fosfor, manqan, dəmir, sink, selenium, kalsium kimi bədən sağlamlığı üçün mühüm maddələr də var.

Kərəviz cinsi gücü artırır. Kərəviz yemək stressə qarşı da təsirlidir. Əsəbləri sakitləşdirir iştahı açır.

Ağız qoxusunu aradan qaldırır, xroniki öskürəyə qarşı təsirlidir. Qanı təmizləyir, qaraciyər xəstəliklərinin müalicəsini tezləşdirir. Təzyiqi nizamlayır.

Gündəlik menyularında kərəvizə yer verənlər daha gec qocalırlar.

Bu tərəvəzdən bol miqdarda yedikdə üzdəki sızanaqlar azalır və tədricən yox olur. Dəri ləkələrinə yaxşı təsir göstərir və dəri rəngini açır.

**Qış aylarında biz tez-tez kəskin respirator xəstəliklərinə (KRX və ya KRVİ) tutuluruq. El arasında bu xəstəlkləri "soyuqdəymə" adlandırırlar.**

Bu çox dəqiq addır. Məsələ burasındadır ki, soyuq hava insan orqanizminin müdafiə imkanlarını kəskin azaldır. Nəticədə, selikli qişalarımızda yaşayan və adi vaxtlar bizim üçün nisbətən ziyansız olan müxtəlif zərərli mikroblar kosmik sürətlə çoxalmağa başlayır və insan xəstələnə bilər.

Təbii ki, soyuqdəymə xəstəliklərinin qarşısını almaq onları müalicə etməkdən daha yaxşıdır. Bunun üçün insan öz immun sistemini hər zaman "döyüşə" hazır vəziyyətdə saxlamalıdır. Bu işdə düzgün və xeyirli qidalanma, kifayət qədər yuxu və istirahət, fiziki aktivlik, vitamin-mineral komplekslərin qəbulu (həkimin təyini ilə!) sizə

# Xalq təbabəti ilə soyuqdəymədən xilas olaq



kömək edəcək. İmmuniteti zəiflədən əsas amillərdən biri də stresdir. Bu səbəbdən stresdən uzaq olmağa çalışın.

Əgər profilaktik tədbirlərə baxmayaraq siz özünüzdə xəstəliyin ilkin əlamətlərini hiss etmisinizsə, vaxt itirmədən aşağıda sadaladığımız tədbirlərə başlayın:

- Dərhal isti vanna və ya isti duş qəbul edib yatağa uzanın və yorğana bürünün. Fiziki aktivliyinizi minimuma endirin.
- İsti maye qəbul edin. Ən yaxşı variant moruqlu və ya ballı isti çaydır. Moruğu "təbii aspirin" adlandırırlar. Məsələ burasındadır ki, moruqda aspirin preparatınının tərkibinə daxil olan salisil turşusu var. Moruq immun sistemini stimullaşdırır, mikroblarla mübarizə aparır, qızdırmanı aşağı salır. Zəncəfil və bal qatılmış çay da yaxşı təsir edir.
- Əgər sizdə zökəm başlayıbsa, yatmamışdan əvvəl ayaqlarınızı 10-15 dəqiqə ərzində (bundan artıq yox!) isti kəklikotu dəmləməsi qatılmış suda saxlayın. Əgər sizdə allergiya yoxdursa, suya bir qədər xardal da əlavə edə bilərsiniz. İsti suyun təsirindən qan aşağı ətraflara axır, baş hissəsində isə damarlar daralır və nəticədə zökəm keçir. Zökəm zamanı istifadə olunan burun damcıları da bu prinsip əsasında işləyir. Vannadan sonra ayaqlarınızı yaxşı qurulayın və yun corab geyinin. Nənələrimiz corablara da xardal tökürdülər.
- Öskürək və zökəm zamanı inqalyasiyalar yaxşı təsir edir. Bir neçə qabıqlı kartof bişirib suya evkalipt bitkisinin yarpaqları və 1 damcı ağ şam ağacı ("pixta") yağı əlavə edin. Sonra başınızı dəsmalla örtüb qazanın üzərində bir qədər nəfəs alın (çalışın ki, selikli qişalarınız yanmasın!).
- Zökəm zamanı burnunuzu yod-duz məhlulu ilə yumaq olar (1/2 stəkan su + 2-3 damla yod + bıçağın ucunda duz). Bu məhlulla burnunuzu gündə 3-4 dəfə yuyun.
- Boğaz ağrısı zamanı boğazınızı duz (1 stəkan ılıq su + 1 ç.q duz) və ya soda (1 stəkan ılıq su + 1 ç.q soda) qatılmış su ilə yaxalayın. Belə məhlullar mikrobları və virusları məhv edir, iltihabla mübarizə aparır. Bundan əlavə boğazınızı ot dəmləmələri (çobanyastığı, evkalipt, adaçayı) ilə yaxalaya bilərsiniz. Boğazınızı gün ərzində 3-4 dəfə yaxalayın.
- Boğaz ağrısı zamanı bal qatılmış süd yaxşı kömək edir.
- Vitamin C soyuqdəymə ilə mübarizədə orqanizmə böyük kömək edir. Belə bir reseptdən istifadə etmək olar. 1 qaşıq nanə yarpağını 1 st. qaynar suda dəmləyin, ora limonun 1/4 hissəsini sıxın və 1 ç.q. bal əlavə edin.

Əgər bütün bu tədbirlərə baxmayaraq sizin vəziyyətininz yaxşılaşmırsa və ya daha ağırlaşırsa, mütləq həkimə müraciət edin.

**qadin.net**

# DÜNYA YENİ İLİ NECƏ QARŞILAYIR?



### Yeni il Fransada

Dünyanın hər yerində bütün insanlar Yeni ili eyni ümidlərlə — xoş möcüzələr, yeni uğurlar, xoşbəxtlik arzusuyla gözləsələr də bayramı hərə öz adət-ənənəsinə uyğun qarşılayır. Avropa ölkəsi olan Fransada Şaxta baba Per Noel — yəni Noel ata adlanır. O, Yeni il gecəsi gəlir və evin balaca sakinlərinin başmağına hədiyyələr qoyur. Böyüklərsə bayram günü daha çox yeyib-içməyi sevirlər. Fransanın şərab ölkəsi olduğunu nəzərə alsaq, vəziyyəti təsəvvür etmək olar. Bu ölkədə bayramın ən maraqlı tərəfi hədiyyələrdir. Amma burada bir qədər diqqətli olmaq lazımdır. Hər hədiyyəni hər adama vermək olmaz. Məsələn, bu bayramda qadının öz ərindən başqa kimdənsə hədiyyə olaraq ətir qəbul etməsi yaxşı hal hesab olunmur.

### Yeni il İsveçrədə

İsveçrədə insanlar bir-birinə şam hədiyyə edirlər ki, bu da dostluğun və sevincin rəmzidir. Bayram axşamı isə ailə başçısı — ata zibil atmaq bəhanəsilə evdən çıxır və Yul Tomten (Şaxta baba) obrazında qayıdır və uşaqlara hədiyyələr paylayır.

### Yeni il İslandiyada

İslandiyada bütün dekabr ayı boyunca kiçiklər öz valideynlərini xeyli təəccübləndirirlər. Bu balaca çoxbilmişlər Şaxta babanın onlara göz qoymasından ehtiyatlanaraq ay boyu özlərini yaxşı aparır, dəcəllik etmirlər. Əks halda bayram gecəsi sobanın yanına qoyduqları çəkmələrin içində kartof və ya bir parça kömür tapa bilərlər.

### Yeni il İtaliyada

İtaliyalı uşaqların isə Şaxta babaları yox, Şaxta nənələri var. Onun adı Befan nənədir. Bu ölkədə Yeni ili bərkdən qışqıraraq qarşılamaq adəti var. Ucadan danışmaq italyanlar üçün adi hal olsa da Yeni il gecəsi onlar öz səslərinə tam sərbəstlik verirlər. Beləcə onlar həm də köhnə ilə vidalaşırlar. Əgər Yeni il bayramı ərəfəsində təsadüfən Roma küçələrindən keçsəniz ehtiyatlı olun. Çünki pəncərələrdən atılan köhnə ev əşyalarına hədəf ola bilərsiniz. İtalyanlar hesab edirlər ki, Yeni ilin astanasında bütün pis fikirlərdən və köhnə əşyalardan xilas olmaq lazımdır.

### Yeni il Böyük Britaniyada

Böyük Britaniyada bayram günü evdə ideal təmizlik və qanun-qayda hökm sürməlidir. Gecə düşərkən ailənin başçısı illərin yerdəyişməsi üçün evin bütün qapılarını geniş açır. Daha sonra qapı bağlanır və evə ilk gələcək qonaq həyəcan və səbirsizliklə gözlənilir. İnanca görə ilin necə keçəcəyi içəri girən adamın görkəmindən çox asılıdır. Qadınlar, sarışınlar və əsmərlər o qədər də arzuolunan deyillər. Ən uğurlu qonaq kürən kişi hesab olunur. Dəhşətli hadisə, çatmaqaş adamın içəri girməsinə qarşı isə o dəqiqə ehtiyat tədbirləri görülür. Ocağa duz atılır, qapıdan xaç asılır. Gələn qonaq özüylə viski, şirin çörək və kömür gətirməlidir. Kömür ocağa atılır ki, Yeni ildə ailə ocağı daha gur yansın.

### Yeni il Almaniyada

Almanlar Yeni il gecəsi saat 12-ni vurarkən ovuclarında metal pul sıxaraq tullanırlar. İnanırlar ki, bunu etsələr yeni il daha bərəkətli olacaq.

### Yeni il Finlandiyada

Finlandiyada Yeni il süfrəsi gavalı kiseli və düyü sıyığı olmadan təsəvvür edilmir. Bayramın əsas qəhrəmanı isə fin Şaxta baba — Youlupukkidir.

### Yeni il İspaniyada

İspaniyada bayram günü hamı şəhərin mərkəzi meydanına axışır. Üzüm yeməyə. Həm də kütləvi şəkildə. Hər kəs müəyyən vaxt ərzində 12 salxım üzüm yeməlidir. Bayram axşamı küçələrdə müxtəlif tələlər qurulur. Bu onun üçündür ki, pis qüvvələr köhnə ildə ilişib qalsın.

### Yeni il Avstriyada

Avstriyada hələ qədimlərdən Yeni il bayramının xeyirxah obrazları bacatəmizləyən və donuzdur. Bu, əlbəttə, sonuncunun bayram süfrəsində həzmrabedən keçirilməsinə mane olmur

### Yeni il Braziliyada

Braziliyada Yeni il toplardan atılan atəşlərlə qarşılanır. Atəş səsi eşidəndə hamı bir-birini qucaqlayıb öpməyə başlayır. İnanırlar ki, həmin an sənə əziz olan birini öpməyə imkan tapsan il xoşbəxtlik içində keçəcək.

### Yeni il Yaponiyada

Yaponiyada bayram günü budda məbədlərindəki bürünc zənglər 108 dəfə çalınır. Bu rəqəm təsadüfi seçilməyib. Yaponlar hesab edirlər ki, hər bir zərbə insan həyatını məhv etməyə qadir olan 108 ziyanlı ehtirasdan birini qovur. Bununla da gündoğar ölkənin sakinləri Yeni ili təmiz ruhla qarşılayırlar.

### Yeni il Çində

Çində də bayram günü böyük səs-küy və atəşfəşanlıqla keçir. Bununla çinlilər Yeni ilin gəlişinə mane olan şər qüvvələri qovduqlarını düşünürlər.

### Yeni il Rusiyada

Rusiyada ən çox sevilən bayram Yeni ildir. Uşaqlar yeni ildən hədiyyələr, böyüklər isə səadət, xoşbəxtlik gözləyir. Bu ənənənin əsası 300 il bundan əvvəl Birinci Pyotrun əmri ilə qoyulub. Əmrdə, həmçinin ağac bəzəmək də öz əksini tapıb. Məhz küknar ağacı 19-cu əsrin axırlarında dəbə mindi.

Yeni il gecəsi süfrəyə mütləq müxtəlif yeməklər, salatlar, içkilər, piroqlar qoyulur. İnanca görə, süfrə nə qədər dolu və gözəl olarsa, qarşıdan gələn il də elə olacaq. Süfrənin ortasına mütləq odda qızardılmış donuz balası qoyulur. Çünki donuz ruslarda bolluq və var-dövlət simvolu kimi tanınır. Süfrəyə quş ətindən heç nə qoyulmur, hesab edilir ki, evdən xoşbəxtlik uça bilər. Xəmirdən müxtəlif heyvan fiqurları bişirilib gələn qonaqlara paylanır. Yeni ili mütləq təzə paltar və ayaqqabıda qarşılayırlar ki, gələn il də həmişə təzə paltar, ayaqqabı almaq imkanı olsun. Yeni il qabağı hamı çalışır ki, bütün borcları qaytarsın, küsülülər barışsın. Evdən sınmış qab-qacağı atır, pəncərə və güzgülər parıldayana qədər silinir. Müxtəlif karnavallar, ballar təşkil olunur, hamı səhərə kimi rəqs edir.

## Oxucularımızın yaradıcılığı

### HAZIR OL, ƏSGƏR!

Ali Baş Komandan deyib nə qədər,
Gərək danışıqlar getməsin hədər.
Xalq, dövlət güclüdür, düşməni didər,
Qələbə marşına hazır ol, əsgər!

Qoru Vətəniniu, qoru həvəslə,
Tənbəl olanı da hünərə səslə.
İnamım böyükdür mənim gənc nəslə,
Qələbə marşına hazır ol, əsgər!

Bir əlində silah, birində sazın,
Laçın, Zəngəzurdan gəlsin avazın.
Qələbə soraqlı olsun bu yazın,
Qələbə marşına hazır ol, əsgər!

Ən böyük arzumdur bu yer üzündə,
Düşmənin niyyəti qalsın gözündə.
Sevincdən ağlayaq Cıdır düzündə,
Qələbə marşına hazır ol, əsgər.

İyirmi ildir ki, çəkdiyim ahdı,
Cənnətdə gavurlar gəzir, günahdı.
Rəbbim haqq sevəndi, Allah agahdı,
Qələbə marşına hazır ol. əsgər!

Zakirəm, hamıya bəllidir andım,
Sonsuz əzablara dözdüm, dayandım.
Qələbə eşqiylə alışdım, yandım,
Qələbə marşına hazır ol, əsgər!

**Zakir AĞDAMLI**
*həkum-şair*

### ANAMI AXTARIRAM

Göy üzü tutulanda,
Qara bulud dolanda,
Külək qanad çalanda
Anamı axtarıram.

Qaranlıqlar çökəndə,
Göydən yağış tökəndə,
Dan yeri söküləndə
Anamı axtarıram.

Qızlar gəlin köçəndə,
Sevinəndə, güləndə,
Xonçalar bəzənəndə
Anamı axtarıram.

Taleyimdən küsəndə,
Ağlayanda, güləndə,
Yarpaq kimi əsəndə
Anamı axtarıram.

Ulduzlar nur salanda,
Dalğalar çırpınanda,
Dönüb uşaq olanda
Anamı axtarıram.

Quşlar cəh-cəh vuranda,
Bülbüllər oxuyanda,
Durnalar qayıdanda
Anamı axtarıram.

**Pəri İSAQOVA**
*ATU-nun əməkdaşı*

## *Etibarsız sayılır*

Aslanov Faiq Mirsəməd oğluna Azərbaycan Tibb Universiteti tərəfindən 1988-ci ildə həkim-stomatoloq ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin VI kurs, $2^b$ qrup tələbəsi Etibarlı Nərmin Nərman qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin I kurs, $38^b$ qrup tələbəsi Qüdrətli Qəmər Əhməd qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Kliniki immunologiya kursunun dosenti Fərəməzov Abdulla Zikrulla oğluna məxsus şəxsi möhür itdiyi üçün etibarsız sayılır.

Qorçiyev Nəsimi Muxtar oğluna Azərbaycan Tibb Universiteti tərəfindən 1998-ci ildə anesteziologiya və reanimatologiya ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Məmmədova Mehparə Mustafa qızına Azərbaycan Tibb Universiteti tərəfindən 1980-ci ildə pediatr ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Rəsulova Arzu Nazim qızına Azərbaycan Tibb Universiteti tərəfindən 1999 –cu ildə pediatr ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Hərbi tibb fakültəsinin I kurs, $1112^c$ qrup tələbəsi Əliyev Ramil Vidadi oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Pediatriya fakültəsinin VI kurs, $401^b$ qrup tələbəsi Həmidova Züleyxa Cəlaləddin qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, $107^a$ qrup tələbəsi Məmmədova Turanə Mais qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.



Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 100
2-ci mərtəbə,
tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya N - 022633
İndeks -0269
Sayı 4000
Sifariş: 201